

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 53 (23.215)

*16 mart 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.

Əbdüləziz Osman əl-Tuveycri qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi və müdrik siyasəti ilə Azərbaycan uğurla inkişaf edir, çiçəklənir və ölkənin təkcə regionda deyil, bütün dünyada mövqeləri gündən-günə möhkəmlənir.

ISESCO ilə əməkdaşlığa toxunan Prezident İlham Əliyev bildirib ki, bu təşkilatın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi dövlətimiz və xalqımız tərəfindən yüksək dəyərləndirilir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Azərbaycan-İran hökumətlərarası birgə komissiyasının həmsədri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyətini, Səudiyyə Ərəbistanı Krallığının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı, ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, BMT baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saksı qəbul edib.



## Mənzillər təqdim olunub





Martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 3 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün dövlətimiz tərəfindən sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlıq imkanları məhdudlaşmış şəxsə yeni mənzillər təqdim edilir. Bu, dövlətimiz tərəfindən Vətən qarşısında öz vəzifələrini və vətənpərvərlik borclarını layiqincə yerinə yetirmiş insanlara göstərilən qayğının daha bir ifadəsidir. Çünki mənzil təminatı hər bir insanın rahat yaşayışı və əsas qayğılarının həll olunması deməkdir.

Ali Məclisin Sədri vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə mənzillə təmin olunanlara təşəkkürünü bildirmiş, onları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmiş və yeni mənzillərində firavan həyat arzulamışdır.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada müvafiq kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara minik avtomobillərinin verilməsi, tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı 4 ailəyə mənzillər, 1 nəfərə isə minik avtomobili təqdim olunmuşdur. Həyata keçirilən tədbirlərin davamı olaraq bu gün müvafiq kateqoriyalı 4 şəxsə yeni mənzillər təqdim olunur. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən yüksək diqqətə və qayğıya görə minnətdarlıq etmiş, əhalinin sosial müdafiəsi sahəsində qarşıya qoyulan vəzifə və tapşırıqların icrasında səylə çalışacaqlarını bildirmişdir.



Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmiş, müharibə iştirakçıları və onların ailə üzvləri ilə xatirə şəkli çəkdirmişdir.

Azərbaycan Vətən Müharibəsi iştirakçısı Samir Sadıxovun valideyni Əmanət Musayeva çıxış edərək demişdir: "Dövlətimiz tərəfindən müharibə iştirakçılarına, şəhid ailələrinə hərtərəfli qayğı göstərilir. Mənim övladım Samir Sadıxov da Vətənimizin müdafiəsində sağlamlığını itirib. Valideyn kimi fəxr edirəm ki, övladım Vətən yolunda şərəflə xidmət edib. Bir neçə il bundan əvvəl övladıma avtomobil təqdim edildi. Bu gün – Novruz bayramı ərəfəsində isə yeni mənzil verilir. Göstərilən bu qayğı bizə ikiqat bayram sevinci yaşadır. Qürur duyuram ki, mən bu ölkənin vətəndaşıyam. Ailəmiz bundan sonra da Vətənimizin inkişafına öz töhfəsini verəcəkdir".

Əmanət Musayeva göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, Novruz bayramı münasibətilə təbriklərini çatdırmışdır.

Naxçıvan şəhərində yerləşən iki və üçotaqlı mənzillər təmir olunaraq lazımi şərait yaradılmışdır. Mənzillə təmin olunanlara xalça hədiyyə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən 2019-cu ilin mart ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilmişdir.

Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olmağa yol verilməyən xəstəliklərin Siyahısı" təsdiq edilmiş və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının inzibati ərazilərində icbari tibbi sığorta zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri" eləcə də "Naxçıvan şəhər Ticarət və Xidmət Departamenti" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq olunmuşdur.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

*Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər fevral ayında da davam etdirilmişdir.*

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 10 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülmüşdür. Ötən ay Dövlət Miqrasiya Xidmətinə daxil olan 427 müraciətin 78-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazələrin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 349 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 159-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmiş, fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası – 95

# Tarixlərdə yaşayan ulu Naxçıvan

*Naxçıvan... Bu adı çəkərkən insanın ağlına gələn ilk düşüncə uluları, müqəddəslik və qəhrəmanlıq məfhumlarıdır. Məhz bu amillər qədim Naxçıvan torpağının böyüklüyünü, nəhəngliyini tarixlər boyu sübuta yetirib. Əsrlərdən gələn həmin rəmzlər, eyni zamanda bu torpağın hansı gərdişlərdən, eniş-yoxuşlardan keçdiyinin göstəricisidir. Naxçıvan torpağının suyunda, havasında, insanlarında – hər bir təbiət damlasında qərinələrə söykənən tarix reallıqları yaşamaqda, yaşadılmaqdadır. Ta Nəşavə, Nəqcuan, Nuhçıxan, Nəqşi-cahan və sair kimi şəcərələrimizdən gələn tarixi adlardan başlayaraq...*



Bu tarix və mədəniyyət mərkəzi haqqında bir çox dünya alimləri çoxsaylı rəylər verib, məntiqi və olduqca maraqlı nəticələrə gəliblər. Əgər biz bu gün mənəviyyatımız, dinimiz baxımından mövzuya yanaşsaq, bütün səmavi dinlərdə əks olunan müqəddəs Əshabi-Kəhfin Naxçıvanda yerləşməsini, Nuh Peyğəmbərin gəmisinin bu ərazilərdə olmasını (yəhudi tarixçi-alimi İosif Flavui Nuh Peyğəmbərin gəmisinin dayandığı yer olaraq "Apobaterion" toponimini qeyd edir ki, bu toponim digər tarixi mənbələrdə də bilavasitə Naxçıvana aid olunmaqdadır) növbəti dəfə kəşf etmiş olarıq.



Daha qədim tarixi mənbələrdə, misal üçün, qədim yunan alimi Ptolomeyin gəldiyi nəticələrdən isə görürük ki, Naxçıvan şəhərinin ilk adı Naqsuana adlandırılıb və şəhərin coğrafi mövqeyi müasir Naxçıvanın ərazisi olaraq göstərilir. Belə faktlar və sübutlar kifayət qədərdir, bütün bunlar isə artıq özü-özlüyündə qədim Naxçıvan elinin nə qədər ulu tarixə malik olduğunu yetərincə sübut edir.

Bu torpağa dəfələrlə işğalçıların, yadellilərin hücumlarının baş verməsi də onun nə qədər mühüm coğrafi mövqeyə sahib olmasının göstəricisi kimi qeyd edilə bilər. Xüsusilə işğalçı erməni köçəri tayfalarının bu torpaqlarda məskunlaşaraq, sonradan ona sahib çıxmaq məqsədləri də qeyd olunan reallıqları əks etdirir. İllər ötdükcə, həmin gerçəklik özünü daha açıq şəkildə göstərib.

### *Əgər Naxçıvan Muxtar Respublikası elan edilməsəydi...*

Ötən əsrin ilk onilliklərindən başlayan keşməkeşli tarixlərinə qədər davam edən proseslər də deməyə əsas verir ki, düşmən gözü daim bu torpaqlarda olub. Əbəs deyil ki, əgər 1920-ci illərdə cərəyan edən proseslər çərçivəsində Naxçıvan Muxtar Respublika statusunu almasaydı, bu ulu diyarımız da erməni işğalına məruz qala bilərdi. Bu baxımdan 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının elan edilməsi həm də bu torpağın İrəvan, Zəngəzur kimi işğala uğramasının qarşısını almış oldu. Belə ki, buna qədər, yəni 1918-ci ildə yaradılan Araz-Türk Respublikası və 1921-ci ildə imzalanmış Moskva, Qars müqavilələri bu məsələdə öz mühüm rolunu oynadı. Nəticədə, ermənilərin Naxçıvanla bağlı hazırladıqları işğalçılıq planları yerlə-yeksan oldu. Sonrakı proseslərdə Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı adlandırıldı. Real vəziyyətin hüquqi təsdiqi olaraq 1924-cü il fevralın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında Dekreti elan olundu və bu sənəddə xüsusi bənddə vurğulandı ki, Naxçıvan diyarı Azərbaycanın himayəsində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilsin. Beləliklə, həmin tarixi sənəd növbəti böyük fəlakətə qarşı keçilməz sədd kimi çəkildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həmin proseslərlə bağlı kəlamı bu gün də hər bir naxçıvanlının yaddaşında tarixi sözlər olaraq həkk olunub: ***"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir".***

Bəli, bu həm də Azərbaycan xalqının iradəsinin və mübarizliyinin göstəricisi olaraq yazılan ümummilli tariximizdir!

### *Bu gücün, bu qüdrətin əsasında ulu öndər Heydər Əliyev qətiyyəti dayanır!*

Onu da qeyd etmək yerinə düşərdi ki, işğalçı Ermənistanın Naxçıvana göz dikməsi, çirkin, mənfur xislətini həyata keçirmək istəyi də əbəs deyildi. Çünki "Dənizdən-dənizə böyük Ermənistan" xülyası ilə yaşayan işğalçılar yalnız Naxçıvanla deyil, bütövlükdə Azərbaycan torpaqlarına sahiblənməyi, daha sonra isə sərhədlərin hüdudlarından kənara çıxıb, digər torpaqları ələ keçirməyi qara məqsədlərində planlaşdırmışdılar. Əzəli və əbədi torpaqlarımız olan və bu gün "Ermənistan" adlandırılan Qərbi Azərbaycanımızın, İrəvanımızın dadı erməni işğalçılarının damağında qalmışdı. Görünür, bu gün də işğalçılıq siyasətlərini davam etdirən ermənilər ona görə hazırkı dövrdə belə, Naxçıvandan gözlərini çəkmir, öz məkrli planlarını reallaşdıracaqlarını sanırlar. Ancaq bu planlarını həyata keçirməyə müyəssər olmayacaqlarını da anlayırlar. Çünki bu gün onların qarşısında güclü, qüdrətli Azərbaycan dövləti dayanıb. Bu gücə, bu qüdrətə sahib olmaq üçün heç də asan yollar keçilməyib və bu yolun əsasında söz yox ki, ulu öndər Heydər Əliyev qətiyyəti, dönməz iradəsi, sarsılmaz gücü dayanıb. Artıq 95 yaşını qeyd edən qədim Naxçıvan torpağı elə nəhəng inkişaf və tərəqqi yolu keçib ki, muxtar respublika olaraq, xarici əlaqələrini qurmaqdan başlayaraq, iqtisadiyyat, sosial, mədəniyyət, ordu quruculuğu və sair sahələrdə uğurlar qazanıb və bu gün də qazanmaqdadır. Beləliklə, Naxçıvanın muxtariyyət statusu ötən 95 il ərzində burada inkişafın təmin olunmasına, genişmiqyaslı quruculuq tədbirlərinin aparılmasına şərait yaratdı. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə gəlişi ilə doğma Azərbaycanımızı, onunla birlikdə isə Naxçıvan Muxtar Respublikası da özünün əsl inkişafına qovuşdu. 1969-1987-ci illərdə Naxçıvan Muxtar Respublikası qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət mərkəzinə çevrildi, iri sənaye müəssisələri tikilib istifadəyə verildi, muxtar respublikanın müasirləşdirilməsi istiqamətində önəmli işlər həyata keçirildi, yeni yaşayış massivləri salındı, şəhər və rayonların, ucqar dağ kəndlərinin infrastrukturu yeniləndi, təhsil, səhiyyə və mədəniyyət müəssisələri tikildi, köhnə kəndli komalarının yerində müasir üslubda abad evlər ucaldıldı. Əlbəttə ki, bütün bunlar ulu öndər Heydər Əliyevin Naxçıvanın gələcəyinə hesablanmış uzaqgörən siyasətinin bir hissəsi idi. Ancaq buna qədər daha çətin və məşəqqətli sınaqlar qarşıda dayanmışdı…



Naxçıvanı çətin vəziyyətdən çıxarmaq və inkişaf strategiyasını müəyyən etmək lazım idi – Heydər Əliyev qarşıya qoyulan bütün məqsədləri gerçəkliyə çevirdi.

1990-cı ilin iyul ayında dahi şəxsiyyət Heydər Əliyevin Moskvadan Naxçıvana qayıtması, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanı ən ağır problemlərdən xilas etdi. Hətta Onun xarici ölkələrlə təmaslar qurması böyük tarixi hadisəyə çevrildi. Artıq beynəlxalq aləm Naxçıvanın qarşılaşdığı kəskin problemlərdən məlumatlı idi. Dünyanın bir sıra aparıcı KİV-lərində Naxçıvanla bağlı reportajlar, məlumatlar diqqət mərkəzində saxlanılmağa başlandı. Ağır müharibə və blokada şəraitində işğalçılarla mübarizə aparan naxçıvanlıların bütün ümidləri ulu öndər Heydər Əliyevə bağlı idi. Belə ki, O, Naxçıvanı blokadadan qurtarmaq üçün 1992-ci ilin mart və avqust aylarında Türkiyə və İrana səfərlər edərək, müqavilələr imzaladı, xüsusilə qardaş Türkiyənin dövlət rəhbərləri ilə Qars müqaviləsi və onun şərtləri ətrafında müzakirələr apardı. Nəticədə, Naxçıvanın muxtariyyət statusu beynəlxalq müqavilələrlə qorundu.

O cümlədən Sədərəkdə və digər rayonlarda açılmış ön cəbhələrdə mövcud olan ağır böhranın aradan qaldırılması üçün Heydər Əliyevin bir telefon zəngi ilə ABŞ-dan humanitar yardım təyyarəsi Naxçıvana endi. Bu humanitar yardımdan sonra digər ölkələrdən, o cümlədən BMT xətti ilə yardımlar gəlməyə başladı. Əlbəttə ki, bütün bunların arxasında Heydər Əliyevə olan dünya rəğbəti, Onun ən mötəbər siyasi lider kimi tanınması gerçəkliyi dayanırdı. Lakin Heydər Əliyev yalnız Naxçıvanı deyil, bütün Azərbaycanı düşünür, xilas yollarını axtarırdı. Qonşu İran İslam Respublikası və qardaş Türkiyə ilə körpülərin açılışı, bu körpülərin həyatvericilik əhəmiyyəti hər bir Naxçıvan sakinində rahatlıq yaratdı. Artıq mövcud və həll olunmayacaq qədər görünən problemlər aradan qaldırılırdı və Heydər Əliyev Dühası xalq üçün daha böyük işlər görməyə hesablanmış müdrik siyasətini yürüdürdü. Naxçıvanı çətin vəziyyətdən çıxarmaq və inkişaf strategiyasını müəyyən etmək lazım idi – Heydər Əliyev qarşıya qoyulan bütün məqsədləri gerçəkliyə çevirdi.

Beləliklə, 1993-cü ildə ulu öndərin siyasi hakimiyyətə qayıdışı ilə xalqın və müstəqil dövlətçiliyin xilası və möhkəmləndirilməsinə başlandı. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına və muxtariyyətin qorunmasına diqqət daha da artırıldı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verildi.

### *Günnüt qələbəsi düşmənin qorxulu röyasına, kabusuna çevrilib*

Bu gün Naxçıvan dünyanın ən aparıcı dövlətlərinin əldə etdiyi uğurları yaşayır və əbəs deyil ki, bütün cəhətlərdən tərəqqi yolunu davam etdirir. Belə ki, ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafını daim diqqət mərkəzində saxlayır, hətta blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasında sürətli və davamlı inkişaf təmin edilir. Dövlətimizin başçısı Naxçıvana etdiyi hər səfərindən sonra mühüm fərmanlar imzalayır, ulu diyarın inkişafı üçün lazımi bütün tövsiyə və tapşırıqlarını muxtar respublikanın rəhbərliyinə verir.

Ermənistanın işğalçılıq siyasətinə qarşı Naxçıvanda formalaşdırılmış güclü Ordu və Silahlı Qüvvələrimizin ən müasir standartlara cavab verməsi, zaman-zaman düşmənə ağır zərbələr vurması işğal altındakı torpaqlarımızın azad edilməsi istiqamətində atılan addımların tərkib hissəsidir.



Qeyd etmək yerinə düşərdi ki, bu gün Azərbaycanın ayrılmaz bir hissəsi olan muxtar respublikamızda aparılan ordu quruculuğu Dövlət Proqramının bir hissəsi kimi davam etdirildiyindən müasir tələblərə cavab verir, hərtərəfli qayğı və diqqətlə əhatə olunur. Ordunun dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, sülh və əmin-amanlığın əsas təminatçısı olduğunu vurğulayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bu istiqamətdə apardığı işlər yüksək nəticələrini verməkdədir. Bu gün Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrdə olan birlik, vətənpərvərlik və yüksək döyüş əhval-ruhiyyəsi torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir.

Biz bu gün də fəxrlə xatırlayırıq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Yaradılan güclü, əzəmətli ordumuz ötən ilin may ayında Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəklikləri keçirdiyi əməliyyat nəticəsində öz nəzarətinə keçirdi. 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağın azad edilməsi, həm də ordumuzun mövqelərini xeyli möhkəmləndirdi.

Ardı 3-cü səhifədə





Günnüt, Ağbulaq yaşayış məntəqələri ətrafındakı yüksəkliklər, Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmənin fəaliyyəti nəzarət altına götürüldü.

Ordumuzun bu uğurunun əsası isə 2000-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikası Babək rayonunun Buzqov kəndinin erməni daşnakları tərəfindən təhlükə yaradan yüksəkliklərinin ordumuzun şücaəti nəticəsində düşmən nəzarətindən geri alınması ilə qoyulmuşdu. Bu uğurlu əməliyyatın davamı kimi Günnüt əməliyyatı düşməni Naxçıvana iddiaları ilə bağlı bir daha düşünməyə vadar etdi.

Artıq əminliklə deyə bilərik ki, Günnüt əməliyyatının uğuru işğal altındakı Qarabağ torpaqlarımızda da davam etdiriləcək. Çünki bütövlükdə Azərbaycanda aparılan ordu quruculuğu yalnız zəfər və qələbələrə hesablanmış mütərəqqi, eləcə də strateji addımlardır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğunun ən yüksək standartlara uyğun aparılması, müdafiə qabiliyyətinin gücü işğalçı düşmənin qorxulu röyasına, kabusuna çevrilib. Söz yox ki, Azərbaycan Ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nailiyyətdir. Bu, həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, ordu quruculuğu sahəsində görülən işlər torpaqlarımızın işğaldan azad olunmasına yönəldilib. Azərbaycan dövləti torpaqlarımızın sülh yolu ilə azad olunmasının tərəfdarıdır. Lakin Aprel döyüşləri bir daha təsdiq etdi ki, Azərbaycan həm sülh, həm də müharibə yolu ilə torpaqlarını azad etməyə qadirdir. Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi.

### *Naxçıvanlılar muxtariyyətin 95 illik yubileyini fərəh və qürur hissləri ilə qeyd edirlər*

Ulu diyarımız Naxçıvan dinamik tərəqqi yolunu ən yüksək templə aparmaqdadır. Hazırda da genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, şəhər və kəndlər abadlaşdırılır, yeni yollar, körpülər salınır, məktəblər, xəstəxanalar, idman kompleksləri tikilib istifadəyə verilir. Bütün yaşayış məntəqələrində müasir standartlara uyğun infrastruktur layihələri həyata keçirilir.

Qazanılan uğurlardan biri də bir zamanlar enerjini idxal hesabına əldə edən Naxçıvan Muxtar Respublikasının bu gün enerji ixracatçısına çevrilməsi faktorudur. Belə ki, statistik rəqəmlərdən də aşkar etdiyimiz kimi, bu gün ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78 faizdən çoxu məhz muxtar respublikanın payına düşür. O cümlədən Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş Avropa ölkələri üçün çox nadir göstərici kimi dəyərləndirilir. O cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsi hazırda Naxçıvan Muxtar Respublikasında 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi ilə nəticəsini tapıb. Kənd təsərrüfatının inkişafı üçün də geniş imkanlar açılıb, fermer və torpaq mülkiyyətçiləri hərtərəfli qayğı ilə əhatə olunub. Beləliklə, sabitlik və inkişaf müasirliklə qədimliyin sintezini özündə birləşdirən, vəhdət halına gətirən Naxçıvanımızın əsas göstəricisidir.









Muxtar respublikada görülən bütün işlərin mərkəzində isə məhz insan amili dayanır. Prezident cənab İlham Əliyevin sosial siyasətin yürüdülməsi faktorunu öz çıxışlarında vurğulaması, insan amilinin prioritet kimi qəbul edildiyini daim diqqətə çatdırması bu siyasətin Naxçıvanda da reallaşdırılmasına münbit şərait yaradıb. Ümumiyyətlə, Prezident cənab İlham Əliyevin muxtar respublika ilə bağlı qəbul etdiyi qərarların hər birində sosial siyasət və insan faktoru nəzərdə tutulub. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında", "Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında" sərəncamların hər birində bu amil öz əksini tapmaqdadır. Bu həm də son dövrlər aparılan inqilabi islahatların tərkib hissəsi kimi də qiymətləndirilir.

### *Naxçıvan dünyanın diqqət mərkəzində!*

Naxçıvan bu gün dünyanın diqqət mərkəzindədir. Əbəs deyil ki, ulu diyarımız bir sıra beynəlxalq idman tədbirlərinə, elmi konfranslara, festivallara ev sahibliyi edir. 2018-ci ildə isə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilib, Naxçıvanda "Avropa günləri", Türk Şurası Gənc Liderlərinin ilk forumu, eləcə də TÜRKSOY-un "Türk-İslam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri" mövzusunda ilk dəfə beynəlxalq konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər dayanıqlı inkişafı təmin edib. Naxçıvanın iqtisadi potensialının durmadan artmasının nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu Caspian European Clubun 2017 və 2018-ci illərdə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 18 parametr üzrə ən yüksək bal toplayaraq iki dəfə lider olub.

Nəticə olaraq isə qeyd edə bilərik ki, əldə edilən nailiyyətlərin davamlı olması üçün Naxçıvan diyarında işlər sürətlə davam etdirilir. Sözlərimi isə ulu öndərimiz Heydər Əliyevin kəlamları ilə bitirmək istərdim: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

95-ci ildönümün mübarək, doğma və ayrılmaz yurdumuz ulu Naxçıvan!

**Bəhruz QULİYEV**
***"SƏS" qəzetinin baş redaktoru***

---

# Moskva müqaviləsi və Naxçıvanın muxtar ərazi statusu

*Azərbaycanın bölgələri içərisində yalnız Naxçıvan müasir tariximizdə muxtar qurum kimi ayrılmışdır. Bunun əsas səbəbi Naxçıvan diyarının 1918-1920-ci illərdə düşdüyü hərbi-siyasi vəziyyətdir. Muxtariyyət statusunu rəsmiləşdirən isə Moskva müqaviləsidir. Moskva müqaviləsi 1921-ci il martın 16-da "Dostluq və qardaşlıq müqaviləsi" adı ilə Türkiyə- Rusiya arasında bağlanmışdır.*

Həmin dövrdə beynəlxalq münasibətlərdə və dünyada yaranmış şəraitlə əlaqədar Rusiya ilə Türkiyənin yaxınlaşmasına, onlar arasında isti münasibətlərin və son nəticədə, bu dövlətlər arasında müəyyən müqavilələrin baş tutmasına gətirib çıxardı. Əslində, bir sıra dövlətlər Rusiya-Türkiyə yaxınlaşmasını istəmirdilər. Çünki Birinci Dünya müharibəsində qalib gəlmiş böyük dövlətlər bir tərəfdən Türkiyəni məğlub edib özlərindən asılı vəziyyətə salmaq, digər tərəfdən isə Rusiyada bolşevik hökumətini devirmək, inqilabi Türkiyənin köməyi ilə çevrilişlə Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti ilə yaxınlaşmasına yol verməməyə çalışırdılar.

Bu illərdə Azərbaycanda, eləcə də Naxçıvan diyarında da baş verən hadisələr çox mürəkkəb, ziddiyyətli və çətin olmuşdur. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvan bölgəsinə lazımi səviyyədə kömək göstərə bilmirdi. Bundan istifadə edən məkrli düşmənlərimiz bir sıra dövlətlərin himayəsindən, yardım və dəstəyindən istifadə edərək Naxçıvan diyarına hərbi basqınlar edir, qırğınlar törədir, şəhər və kəndləri dağıdır, yandırır, ağlasığmaz vəhşiliklər törədirdi.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra da daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik davam edirdi. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi Nəriman Nərimanova, Serqo Orconikidzeyə məktubla müraciət etdi. Müraciətdə deyilirdi: *"Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik".*

XI Ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: *"Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir".*

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək, həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. 1920-ci il noyabrın 9-da Bakıdakı çıxışında İ.Stalin demişdi: *"Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar".* İ.Stalinin bu çıxışından 20 gün sonra – noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti quruldu. Bu o demək idi ki, İ.Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsinin sədri 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Həmin bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi, yəni Zəngəzur və Naxçıvan Ermənistana verilirdi.

Məlum bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, onun üstündə mübahisə və münaqişələr səngiməkdənsə, xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri də müdafiə etməsini gizlətmirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasının sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün "həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması" qərara alınmışdır. Gümrü müqaviləsinin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı razılığa gəlmişdilər ki, Ermənistan Naxçıvanla bağlı əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq, indiki ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır. Müqavilənin 12-ci maddəsinə əsasən Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürdü.

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanat ilə çıxış edərək, Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi, yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürdü.

1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi V.İ.Leninə müraciət etdi. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. RSFSR Xalq Xarici İşlər komissarı G.Çiçerin danışıqlara Azərbaycanı və Ermənistanı da qatmaq istəyirdi. Burada onun məqsədi bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaqdı. Türkiyə bu təkliflə razılaşmadı və bildirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Mübahisələr danışıqları dayandırdı.

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti

*Ardı 4-cü səhifədə*

Moskvaya gələrək yeni danışıqlara başladı. Danışıqlarda Rusiya tərəfindən Xalq Xarici İşlər komissarı G.Çiçerin və RSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyənin bu məsələyə böyük önəm verməsi bölgənin strateji və geosiyasi mövqeyi ilə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşməsi idi. Buna görə də Mustafa Kamal paşa Yusif Kamal bəyə Naxçıvanın "Türk qapısı" olduğunu xatırlatmış və buna görə hərəkət edilməsini bildirmişdi. Y.Kamalın xatirələrindən bəlli olur ki, danışıqlarda Naxçıvana dair müzakirələr xeyli uzanmış, İ.Stalin "Naxçıvan üzərində nə üçün bu qədər israr edirsiniz?" sualına da "orası türk qapısıdır, ondan" cavabını almışdı.

Moskva danışıqlarının bəzi iclaslarında Azərbaycanın Rusiyadakı səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski də iştirak etmiş və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan diyarı ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bunlarla tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. B.Şahtaxtinskinin məktubu martın 16-da Stalinin, Çiçerinin və başqalarının iştirakı ilə baxılmış, təkliflər nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu.

Bütün bunlar Moskva müqaviləsinə öz təsirini göstərdi. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" RSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı.

Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər danışıqların 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olundu. Türk heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Onlar belə bir mövqedən çıxış edirdilər ki, Naxçıvan əhalisinin türk qoşunlarını dəvət və qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olduğunu göstərir. Qeyd edək ki, Gümrü müqaviləsində də Naxçıvanın Türkiyənin himayəsi altında olduğu təsbit edilmişdir. Rusiya bunlarla razılaşmırdı. Belə olan təqdirdə türk heyəti bildirdi ki, Türkiyə bölgə üzərindəki himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır.

Danışıqların martın 12-də keçirilən iclasında əsasən Naxçıvan dairəsi və Ermənistan arasında müəyyənləşdirilən sərhədlər ətrafında müzakirə aparıldı. Türkiyənin təkidindən sonra Şərur-Dərələyəz dairəsinin Naxçıvana keçməsi və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədin Kömürlü dağ (6930) və Saray Bulaq (8071) dağlarından, Ararat stansiyasından başlaması barədə razılığa gəlindi və bütün bu məsələlərin Azərbaycan, Ermənistan və Türkiyə nümayəndələrindən ibarət qarışıq komissiyanın razılaşdırılmasına verilməsi qərara alındı.

Danışıqların martın 14-də keçirilən iclasında Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi. Türk nümayəndələri göstərdiyi ciddi səylər nəticəsində Moskva konfransında Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail ola bildi, Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı.

Moskva müqaviləsi, əslində, martın 18-də imzalandı. Lakin türk nümayəndə heyətinin təklifi ilə İstanbulun işğalının ildönümü günü olan 16 mart tarixi səbəbindən Rusiyanın da razılığı ilə müqaviləyə 16 mart tarixi qoyuldu.

Müqaviləni Rusiya tərəfindən Georgi Çiçerin və Cəlal Qorxmazov, Türkiyə tərəfindən isə Yusif Kamal, Rza Nur və Əli Fuad Cəbəsoy imzaladılar. 16 maddə və 3 əlavədən ibarət olan "Dostluq və qardaşlıq" haqqında RSFSR-Türkiyə müqaviləsinin üçüncü maddəsində Naxçıvan məsələsinin həlli aşağıdakı kimi təsbit edildi: "Müqaviləni imzalayan tərəflər bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlər daxilindəki Naxçıvan bölgəsinin, sahib olacağı himayə haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə getməmək şərtilə, Azərbaycanın himayəsində muxtar bir ərazi təşkil etməsi ilə bağlı razılığa gəlirlər". "Naxçıvan ərazisi" adlı I (C) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi: "Ararat stansiyası – Saray Bulaq dağı (8071) – Kömürlü dağ (6839) – (6930) – (3080) – Sayat dağ (7868) – Qurdqulaq kəndi – Həməsür dağı (8160) – Yüksəklik (8022) – Kükü dağ (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi.

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial və ədalətli mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafelərdən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu *"bizi Qafqazdakı daimi müharibələrdən xilas edir"*. Lakin bu sözlər özünü doğrultmadı. Nəriman Nərimanov qeyd etmişdir ki, *"Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orda bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik"*. Yusif Kamal bəy isə yazmışdır ki, *"Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir"*.

Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə, qədim türk-oğuz yurdu olan Naxçıvana muxtariyyət statusu verilməklə Azərbaycanın himayəsində qaldı. Bütün bunlarla bərabər, erməni daşnakları XX əsr boyu Naxçıvan iddialarından əl çəkməmiş, 90-cı illərin əvvəllərində buraya silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Son illərdə isə onlar bu barədə bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara müraciət etmişlər.

Erməni işğalına məruz qaldığımız, Naxçıvan Muxtar Respublikasına erməni iddialarının artdığı indiki zamanda Moskva beynəlxalq müqaviləsinin əhəmiyyəti daha aydın şəkildə nəzərə çarpır və Naxçıvanın muxtariyyətinin qorunmasında əvəzsiz rol oynayır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini söhbət mövzusuna çevirmiş, bir sıra məsələləri dərindən açıqlamış və bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilib. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırmış olur. Dövlətlərarası münasibətlər baxımından bu növ müqavilələr daimilik xarakterinə malikdir. Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd uzun illərdir ki, Naxçıvanın təhlükəsizliyini şərəflə qoruyur.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Ermənistanın Azərbaycana qarşı faşist təbliğatı

*Amerikalı tədqiqatçı Peter Tase "The Guardian" və "Hyperallergic" qəzetlərində ermənilər tərəfindən Naxçıvan barədə yazılan uydurma yalanlara martın 13-də "Eurasia Dairy" saytında yerləşdirdiyi "Ermənistanın Azərbaycana qarşı faşist təbliğatı" sərlövhəli məqalə ilə cavab vermişdir. Həmin məqaləni təqdim edirik.*



2019-cu il fevralın 18-də Amerika Birləşmiş Ştatlarının Brooklyn (Nyu-York) şəhərində yerləşən "Hyperallergic" onlayn qəzeti qədim Azərbaycan torpağı olan Naxçıvan Muxtar Respublikasında erməni dini memarlıq və mədəniyyətini tərənnüm edən məqalə nəşr etmişdir. Bu uzun və yanıltıcı yazıların müəllifləri Sarah Pickman və Simon Maghakyan Azərbaycan xalqına qarşı şər kampaniyası aparmış, həmçinin heç bir elmi əsası olmayan təhqirlərə başlamışdır.

Pickman və Maghakyan oxuculara yanlış məlumat verməklə Naxçıvan Muxtar Respublikası və onun qədim tarixi ilə bağlı faktları məhv etməyə və ləkələməyə cəhd edirlər. Hər iki yazar məqalədə yanıltıcı sitat və həqiqətə uyğun olmayan fotoşəkillərdən istifadə edir, Azərbaycanın minillik milli mədəniyyətinin şöhrəti hesabına beynəlxalq ad və nüfuz qazanmaq istəyir. Naxçıvan Muxtar Respublikasının zəngin tarixi-mədəni irsinə qarşı erməni saxtakarlığı ilə hücuma keçmək təşəbbüsü beynəlxalq ictimaiyyətdə yanlış fikir formalaşdırmağın və şovinizmin bir formasıdır. ABŞ-da fəaliyyət göstərən erməni maraqlarını müdafiə edən qruplar tərəfindən təşkil edilən bu kampaniyanın əsas məqsədi beynəlxalq dinlərarası dialoqu, multikulturalizmi, Qafqazda sülh və firavanlığı deyil, düşmənçiliyi təşviq etməkdir.

Pickmanın dəhşətli sözləri Ermənistanın yüksəkvəzifəli rəsmilərinin aydın şəkildə təşkil etdiyi hiyləgər siyasi hücumun və informasiya müharibəsinin göstəricisidir. Lakin unudurlar ki, Ermənistan 30 ildir, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu, ümumilikdə, 20 faiz torpağını işğal edən, Naxçıvanı blokadada saxlayan və davamlı olaraq sərhəddə atəşkəs rejimini pozan təcavüzkar dövlətdir. Ermənistanda müşahidə edilən iqtisadi durğunluq, yüksək işsizlik səviyyəsi və kölgə iqtisadiyyat səviyyəsinin artması, həmçinin silahlı qüvvələrdə ərzaq çatışmazlığı ölkədəki daxili problemlərin dəhşətli səviyyədə olduğunu təsdiq edir. Erməni yazarlar elektron qəzetləri və portalları uydurma faktlar və fotoşəkillərlə, eləcə də çirkin erməni təbliğat maşınının saxta xəbərləri və etibarsız məlumatları ilə çirkləndirməkdənsə, yaxşı olardı ölkələrindəki daxili problemləri beynəlxalq ictimaiyyətə təqdim etsinlər. Məhz bu həm erməni vətəndaşları, həm də regional inkişaf üçün faydalı olardı.

Aydındır ki, Ermənistanın daxildəki faşist rejimi və xaricdəki zəhlətökən diasporası zəhmətkeş və işğaldan əziyyət çəkmiş Azərbaycan xalqına qarşı daim saxta bəyanatlar və nifrət dolu fikirlər söyləmişlər. Pickman tərəfindən şəkil və "faktlarla" yorucu və qeyri-peşəkar şəkildə hazırlanmış məqaləyə cavab olaraq bildirirəm ki, Naxçıvanın qədim və müasir tarixində bu hadisələr baş verməmişdir. Hər iki müəllif Azərbaycan torpağında olan ərazilərin adlarını səhv yazmaqla ictimai fikri dəyişməyə çalışır.

Simon Maghakyan və digər erməni mənbələri təsdiq edirlər ki, Culfada olmuş qəbir daşları hələ sovet dövründə ermənilərin özləri tərəfindən Ermənistana daşınaraq müxtəlif məkanlarda yerləşdirilmişdir. Məsələn, həmin məzar daşları İrəvandakı konyak zavodunun həyətində və Ermənistan tarix muzeyində yerləşdirilib. Bu faktları erməni saytları da təsdiq edir. Aşağıdakı linkə nəzərə salmaq lazımdır:

*http://armtoday.info/default.asp?Lang=_Ru&NewsID=60651&SectionID=37&RegionID=0&Date=08/25/2012&Page-Position=2*



Şəkildə gördüyünüz xaçkar isə sovet dövründə Naxçıvandan aparılmışdır. Hazırda Ermənistanda Metropolitan muzeyində saxlanılır.

Yale Universitetinin fəlsəfə doktoru Pickman Azərbaycanın suveren ərazisindəki dini, mədəni, məzarüstü qəbir daşları və qədim tarixi abidələrin mövcud vəziyyətinə dair elmi məqalə yazmaq üçün cəhd göstərməlidir. Çünki Azərbaycanın Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan və Füzuli rayonları erməni silahlı qüvvələrinin işğalı altındadır və Azərbaycan xalqının həmin ərazilərdəki tarixi abidələri dağıdılıb. Yaxud da I Dünya müharibəsi dövründə Amerika səfiri Morgenthaunun ləkələnmiş irsini davam etdirməkdənsə, 450 mindən çox Azərbaycan vətəndaşına təhlükə yaradan Sərsəng su anbarı barədə elmi məqalə yazmaq daha yaxşı olardı.

## *"Ölkəmizi tanıyaq"* tur aksiyalarına start verilib



Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara martın 15-də Naxçıvan şəhərində də start verilib.

Keçirilən sınaq imtahanlarında yüksək nəticə əldə edən 160 şagird 20 bələdçi-müəllimin müşayiəti ilə tur-aksiya çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola düşüb. Məktəblilər Bakı şəhərində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib, növbəti günlərdə Heydər Əliyev Mərkəzi ilə yanaşı, əhəmiyyətli mədəni-tarixi yerlərlə tanış olacaqlar.

* * *

Martın 15-də "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərinin Yasamal, Binəqədi, Nəsimi, Qaradağ, Xətai və Səbail rayonlarından olan 162 məktəbli 18 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəlib.

**✍ Nail ƏSGƏROV**

## İdmançıların tibbi müayinələri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları idmançılarının Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında tibbi müayinədən keçirilməsinə start verilib.

Muxtar respublikanın Güləş, Boks federasiyalarının, Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən "Xatun" Bədii Gimnastika İdman Klubunun 76 idmançısı koordiorevmatoloq, nevropatoloq, uroloq, lor, dəri zöhrəvi və pediatr nəzarəti altında tibbi müayinədən keçib.

İdmançıların müayinədən keçirilməsi Ordubad, Culfa, Babək və Şərur rayonlarında da həyata keçirilib.

Qeyd edək ki, uşaq, yeniyetmə və gənc idmançıların tibbi müayinəsi Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında mart ayının 19-na kimi davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Əliyeva Zivər Məmməd qızının adına verilmiş Şərur rayonu, H.Cavid küçəsi 5/10 ünvanında yerləşən mənzilə aid 102011000017-05101-093002 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

Şərur Rayon Qadınlar Məclisi fəaliyyətini dayandırdığından ləğv olunur.

**ŞƏRQ *qapısı***
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1495. Sifariş № 207